# TWINNING NEWSLETTER

**Biznes statistikası sahəsində məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması işlərini gücləndirmək məqsədilə Dövlət Statistika Komitəsinə və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə dəstək**

## 3-cü buraxılış, mart 2021-ci il

**Mövzular**

- ✓ Müəssisə və Müəssisə Qrupları (MQ)
- ✓ Məlumat Mənbələri və MQ-lərin yaradılması
- ✓ Biznes Demoqrafiyasına (BD) giriş
- ✓ Milli əməkdaşlıq şurasının yaradılması üzrə seminar
- ✓ Struktur biznes statistikasının (SBS) cari vəziyyəti və əldə edilməsi hədəflənən səviyyəsi
- ✓ KOB indikatorları üzrə məlumat mənbələrinin müəyyən edilməsi
- ✓ SBS-də İnzibati Məlumatlardan (İM) istifadə

**Gələcək fəaliyyətlər**

- ✓ Ümumi Statistik Biznes Prosesi Modelinə əsasən biznes prosesi
- ✓ Statistik Müəssisə; profilləşdirmə və konsolidasiya
- ✓ BD statistikasının tərtib edilməsi
- ✓ KOB indikatorları üzrə yeni namizədlərin qiymətləndirilməsi
- ✓ SBS üçün imputasiyanın aparılması

## Layihə barədə

Aİ tərəfindən maliyyələşdirilən bu Tvinninq layihəsi (AZ/16/ENI/ST/01/19 (AZ/53)) Finlandiyanın Statistika İdarəsinin rəhbərlik etdiyi və Litvanın Statistika Departamenti və Niderland Mərkəzi Statistika Bürosunun kiçik tərəfdaş kimi daxil olduğu **konsorsium** tərəfindən həyata keçirilir. Həmçinin Danimarkanın Statistika İdarəsi və Finlandiyanın İctimai İdarəetmə İnstitutu layihəyə əlavə dəstək təmin edir.

**Əsas benefisiar təşkilatlar** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidməti və Kiçik və Orta Biznesin İnkişafı Agentliyidir. Tvinninq laihəsinin **ümumi məqsədi** Azərbaycanda özəl sektorun/kiçik və orta biznesin fəaliyyətinə dair məlumatların toplanması, işlənilməsi, təhlili, nəşri və yayımlanması sahəsində yerli mütəxəssislərin potensialının artırılmasından ibarətdir.

**Nəşr etdi:** Tvinninq ofisi
**Ünvan:** İnşaatçılar prospekti 81, Bakı şəhəri, AZ 1136
Tel: +994 12 377 10 70
**Veb-səhifə:** http://www.stat.fi/aztwinning
**Bizi izləyin:**
**Xəbər bulletenimizə abunə olmaq istəyirsinizsə, gultakin.babayeva@stat.fi e-poçtuna müraciət göndərməyinizi xahiş edirik.**

## Layihə xəbərləri

Statistik müəssisə və Müəssisə qrupları (MQ) üzrə **2.1.A saylı fəaliyyət** cənab Timo Laukkanen (Finlandiya Statistika İdarəsinin baş statistika mütəxəssisi, 1-ci Komponentin rəhbəri) və cənab Søren Kristensen (Danimarka Statistika İdarəsinin baş məsləhətçi) tərəfindən həyata keçirilmişdir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin altı, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidmətinin üç əməkdaşının iştirak etdiyi beş distant sessiyada Biznes statistikasının istehsalı prosesində Müəssisə qrupları (MQ), Müəssisələr (M) və Statistik müəssisələrin profilləşdirilməsi kimi mövzular əhatə edilmişdir. Həmçinin MQ üzrə Aİ tövsiyələri və Üzv Dövlətlərin təcrübələri də nəzərdən keçirilmişdir. Azərbaycanda MQ və profilləşdirmə ilə bağlı cari vəziyyət BÖ iştirakçıları ilə birlikdə nəzərdən keçirilmiş və DSK-də Müəssisə qrupları reyestrinin yaradılması və profilləşdirmə üzrə tövsiyələr hazırlanmışdır.




Ekspertlər cənab Timo Laukkanen (Finlandiya Statistika İdarəsi) və cənab Soren Kristensen (Danimarka Statistika İdarəsi) tərəfindən məlumat mənbələri və Müəssisə Qruplarının (MQ) yaradılması üzrə **fəaliyyət (2.1.B)** həyata keçirilmişdur. 2021-ci ilin fevral ayında baş tutmuş missiyanın məqsədləri məlumat mənbələrinin müəyyən edilməsi, ilkin məlumatların əldə edilməsi və mülkiyyət məlumatları əsasında MQ-larının yaradılması olmuşdur. Dörd distant sessiya müddətində QME-lər BÖ-dən olan tərəf müqabilləri ilə birlikdə tabeçilik və ya mülkiyyət kodları üzrə inzibati məlumatların əldə edilməsi imkanlarını, ictimaiyyətə açıq məlumatlar əsasında MQ-lərin manual olaraq yaradılması, birbaşa bağlantılardan istifadə edərək MQ Reyestrinin yaradılması imkanlarını müzakirə etdilər. Fəaliyyət nəticəsində ekspertlər Dövlət Statistika Komitəsinə Azərbaycanda MQR-in yaradılması üzrə tövsiyələr hazırladılar və təqdim etdilər.

**1 saylı Komponentin 1.3.A** saylı fəaliyyəti xanım Daliutė Kavaliauskienė (Litva Statistika Departamenti), cənab Fred Demollin (Niderland Mərkəzi Statistika Bürosu) və cənab Timo Laukkanen (Finlandiya Statistika İdarəsinin baş statistika mütəxəssisi, 1-ci Komponentin rəhbəri) tərəfindən həyata keçirilmişdir. Fəaliyyətin məqsədi müxtəlif qurumlar tərəfindən öz inzibati ehtiyaclarına uyğun olaraq vahid standartlara/təsnifatlara tez bir şəkildə düzəliş etmə yollarının nəzərdən keçirilməsi olmuşdur. Fəaliyyət çərçivəsində 4 distant sessiya həyata keçirilmişdir. İştirakçılar Dövlət Statistika Komitəsi və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən müştərək istifadə olunan 5 təsnifatın yenilənməsi prosesi barədə müzakirələr apardılar. Fəaliyyət nəticəsində qısamüddətli ekspertlər müştərək istifadə olunan təsnifatların yenilənməsi üzrə qısa, orta və uzunmüddətli tövsiyələr verdilər.

**Bu nəşrin məzmunu Avropa İttifaqının mövqeyini əks etdirmir**

Bu layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

Niderland Mərkəzi Statistika Bürosundan cənab Fred Demollin, cənab Frans Duijsings və xanım Elia Bleuten, Finlandiya Statistika İdarəsindən cənab Timo Laukkanen və Litva Statistika Departamentindən xanım Daliute Kavaliauskiene tərəfindən **bir günlük seminar (1.3.B)** keçirilmişdir. Seminarın məqsədi İnzibati Məlumatların (İM) istifadəçiləri və istehsalçılarını bir araya gətirəcək milli əməkdaşlıq şurasının yaradılması olmuşdur. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsindən 7 və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən 14 rəsmi seminarda iştirak etmişdir.

Seminar müddətində ekspertlər və BÖ iştirakçıları İnzitbati Məlumatların istifadəçiləri və istehsalçılarını bir araya gətirəcək milli əməkdaşlıq şurasının yaradılması üzrə fikir mübadiləsi apardılar. Zoom platformasında yaradılmış əsas və yardımçı görüş otaqlarında maraqlı müzakirələr aparıldı.




2-ci Komponentin “KOB indikatorları üzrə məlumat mənbələrinin müəyyən edilməsi” adlı **5.2.A saylı fəaliyyəti** 2021-ci ilin fevral ayında həyata keçirilmişdir. Fəaliyyət Finlandiya Statistika İdarəsindən xanım Ulla Virtanen və xanım Merja Myllymäki tərəfindən həyata keçirilmişdir. Fəaliyyətin məqsədi əldə olan məlumatların KOB statistikasının istehsalı üçün uyğun olub-olmadığının nəzərdən keçirilməsi olmuşdur. Missiyanın gözlənilən nəticələrindən biri inzibati məlumat mənbələrinin axtarılması olmuşdur. Bu istiqamətdə əsas mənbə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti olmaqla, digər inzibati məlumat təminatçıları da nəzərdən keçirilmişdir. Missiya çərçivəsində həmçinin məlumatların istifadəçilərin ehtiyaclarına uyğunluğu, vaxtlı təminatı, keyfiyyəti və davamlılığı kimi məsələlərin qiymətləndirilməsi aparılmışdır.

Qısamüddətli ekspertlər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi üçün işlək əməkdaşlıq modelinin qurulmasına və mikro məlumatlar səviyyəsində inzibati məlumatlardan istifadənin genişləndirilməsinə dair tövsiyələr verdilər.



Struktur biznes statistikasının (SBS) cari vəziyyəti və əldə edilməsi hədəflənən səviyyəsi adlı **4.1.A saylı Fəaliyyət** 2021-ci ilin yanvar ayında həyata keçirilmişdir. Fəaliyyət çərçivəsində Finlandiya, Litva və Danimarkanın Statistika idarələrinin nümayəndələri xanım Saara Roine, xanım Antanina Valiulienė və cənab Jesper Moltrup-Nielsen SBS üzrə Aİ-nin tövsiyələri və Üzv Dövlətlərin təcrübələrinə dair təqdimatlar etdilər, Azərbaycan Respublikasının Dövlət Statistika SBS üzrə cari vəziyyəti və əldə edilməsi hədəflənən səviyyəsini müəyyənləşdirdilər və SBS üzrə potensial İnzibati Məlumat mənbələrini Dövlət Statistika Komitəsi və İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidmətinin rəsmiləri ilə müzakirə etdilər. QME-lər Azərbaycanda SBS-in yenidən tərtib edilməsinə dair tövsiyələr hazırlayıb təqdim etdilər. Benefisiar müəssisələr Nəticə 4 çərçivəsində nəzərdə tutulan növbəti fəaliyyətlərdə QME-lərlə birlikdə verilmiş tövsiyələr istiqamətində işi davam etdirəcəklər.




Finlandiya Statistika İdarəsinin ekspertləri cənab Timo Laukkanen, xanım Sini Liukkonen və Litva Statistika Departamentinin eksperti cənab Maksim Lata tərəfindən **2.2.A saylı Fəaliyyət** həyata keçirilmişdir. Dörd distant sessiyadan ibarət fəaliyyət 2021-ci ilin mart ayında baş tutmuşdur. Fəaliyyətin məqsədi Biznes Demoqrafiyası (BD) üzrə potensialın artırılması olmuşdur. Fəaliyyət çərçivəsində BD statistikası üzrə Aİ tövsiyələrinə dair təqdimat edilmişdir. Statistik Vahidlərin Dövlət Reyestrində (SVDR) mövcud olan məlumatların BD məqsədləri üçün uyğunluğuna dair ilkin təhlil aparılmışdır. Həmçinin BD məlumat sıraları və sənədləri şərh edilmiş və müvafiq təqdimatlar edilmişdir.



**4.2.A saylı Fəaliyyət** Litva Statistika Departamentindən xanım Antanina Valiuliene və cənab Andrius Ciginas tərəfindən həyata keçirilmişdir. Fəaliyyətin məqsədi inzibati məlumatları Struktur Biznes Statistikası (SBS) dəyişənləri ilə tutuşdurmaq və İnzibati Məlumatların (İM) keyfiyyət problemlərini və çatışmazlıqlarını müəyyən etmək olmuşdur. Fəaliyyət müddətində qısamüddətli ekspertlər (QME) xəritələmə (tutuşdurma) prosesinin əsas mərhələlərini/prosedurlarını və işçilər üzrə SBS, sorğu və İM dəyişənlərinin xəritələnməsinə dair praktiki nümunə nümayiş etdirdilər. QME-lər tərəfindən missiya hesabatı hazırlandı və həmin hesabat BÖ rəsmiləri tərəfindən təsdiqləndi.



**Bu nəşrin məzmunu Avropa İttifaqının mövqeyini əks etdirmir**

Bu layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir